# AZƏRBAYCAN RESPUBLİKASININ
# NAZİRLƏR KABİNETİ

# SƏRƏNCAM

**“Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli 456 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə**

“Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli 456 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi:

1.1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti və Nəqliyyatı Əlaqələndirmə Şurası ilə birlikdə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 30 yanvar tarixli 456 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı”nın həyata keçirilməsinə dair Tədbirlər Planı”nın (bundan sonra – Tədbirlər Planı) 8.1.2.2-ci yarımbəndinin icrası ilə bağlı təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Prezidenti yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyi, Azərbaycan Nəqliyyat və Kommunikasiya Holdinqi, “Bakı Metropoliteni” Qapalı Səhmdar Cəmiyyəti, “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti və “Azərenerji” Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə Tədbirlər Planının 8.1.2.3-cü yarımbəndinin icrasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

1.3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Şəhərsalma və Arxitektura Komitəsi, Bakı Şəhər İcra Hakimiyyəti, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi və “Azərişıq” Açıq Səhmdar Cəmiyyəti ilə birlikdə Tədbirlər Planının 8.1.5.1-ci

yarımbəndinin icrasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi, Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi, Bakı Şəhər İcra Hakimiyyəti və Nəqliyyatı Əlaqələndirmə Şurası ilə birlikdə Tədbirlər Planının 8.1.6.3-cü yarımbəndinin icrasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi, Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyi və Nəqliyyatı Əlaqələndirmə Şurası ilə birlikdə Tədbirlər Planının 8.1.7.6-cı yarımbəndinin icrasına dair təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

4. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi (bundan sonra – Mərkəz):

4.1. "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nda (bundan sonra – Dövlət Proqramı) nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini təmin etmək məqsədilə mövcud rəqəmsal resurslar əsasında "Bakı şəhərində və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə dair 2025–2030-cu illər üçün Dövlət Proqramı"nın icrasının monitorinqi və hesabatlılıq modulu"nun (bundan sonra – Modul) formalaşdırılmasını 6 (altı) ay müddətində təmin etsin və növbəti ildən Dövlət Proqramında monitorinqini və qiymətləndirilməsini həmin Modul üzərindən həyata keçirsin;

4.2. Dövlət Proqramında qeyd olunmuş tədbirlərlə bağlı icraçı orqanlar (qurumlar), ərazi, habelə obyektlər üzrə icra müddətlərini (illər üzrə bölgüsü), layihələrlə bağlı (ərazi planlaşdırma, tikintiyə icazə sənədi, texniki-iqtisadi əsaslandırma, tikinti layihəsi, şəhərsalma planına uyğunluq rəyi, smeta sənədləri, layihə konsepsiyası, ekspertiza rəyi, ətraf mühitə təsirlə bağlı dövlət ekoloji ekspertizasının rəyi, maliyyə vəsaitinin ayrılması, satınalma və müqavilələrin bağlanması və s.) məlumatları və digər zəruri göstəriciləri təsnifatlandırmaqla mövcud vəziyyət barədə informasiyaları, aidiyyəti foto və videomaterialları, habelə iri layihələrə münasibətdə birbaşa (onlayn) kamera müşahidəsini təmin edən və Layihə İdarəetməsi Modulunda hesabatlılığa imkan verən müvafiq bölmələrin yaradılmasını təmin etsin;

4.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrası monitorinqinin nəticəsi barədə məlumatları ildə 1 (bir) dəfə, hər il fevralın 28-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

4.4. Modulun yaradılmasında və Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin monitorinqi və qiymətləndirilməsi ilə bağlı xərclər Mərkəzin növbəti illər üçün büdcəsində nəzərə alınsın.

5. Dövlət Proqramında nəzərdə tutulmuş işlər üzrə əsas icraçı orqanlar (qurumlar) aşağıdakıları təmin etsinlər:

5.1. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin aidiyyəti üzrə icrasını təmin etmək məqsədilə Proqramda nəzərdə tutulmuş tədbirlər üzrə əsas və digər icraçı orqanların (qurumların) rəhbərlərinin müavinlərindən ibarət məsul şəxsləri təyin edərək onlar barədə məlumatın 10 (on) gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasını;

5.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin nəticə indikatorları üzrə hədəf göstəriciləri də müəyyən edilməklə, illər üzrə bölgüsünü 1 (bir) ay müddətində Mərkəz ilə razılaşdırılmış indikatorlar cədvəlinin nümunəvi formasına uyğun hazırlayaraq Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim olunmasını;

5.3. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanlar (qurumlar) icra ilə bağlı müvafiq məlumatların monitorinqinin və qiymətləndirilməsinin həyata keçirilməsi məqsədilə Mərkəzə təqdim edilməsi üçün ayda 1 (bir) dəfə növbəti ayın 15-dək, ilin yekunları barədə məlumatların isə hər il yanvarın 25-dək Modulda yerləşdirilməsini.

6. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Dövlət Proqramının icrasına məsul orqanlar (qurumlar) Proqramda nəzərdə tutulmuş tədbirlər üzrə layihələrin ilkin ümumi dəyəri, dövlət büdcəsindən ayrılmış və istifadə olunmuş vəsait barədə məlumatların (Mərkəzin təqdim etdiyi formaya uyğun olaraq) hər növbəti rübün 5-dək Modulda yerləşdirilməsini təmin etsin.

7. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin tam, vaxtında və effektiv icrasını təmin etmək və aidiyyəti dövlət orqanlarının (qurumlarının) fəaliyyətinin əlaqələndirilməsi məqsədilə rəhbəri Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbəri olmaqla, bu Sərəncamın 5.1-ci bəndində qeyd olunmuş məsul şəxslərdən və Mərkəzin nümayəndəsindən ibarət İşçi qrup formalaşdırılsın. İşçi qrupun icra fəaliyyətinə dair ildə 2 (iki) dəfədən az olmayaraq iclasın keçirilməsi təmin edilsin.

8. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinə və Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinə tapşırılsın.

9. Bu Sərəncamın 1.1-ci bəndinin icrası Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının Aqrar və ekologiya şöbəsinə, 1.2-ci bəndinin icrası Sənaye və energetika şöbəsinə, 1.3-cü bəndinin icrası Nəqliyyat, kommunikasiya və innovasiya şöbəsinə, 2-ci hissəsinin icrası Hüquq və qanunvericilik şöbəsinə və 3-cü hissəsinin icrası Sosial məsələlər şöbəsinə həvalə edilsin.

10. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli Əsədov**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, “ 1 ” “ fevral ” 2025-ci il

№ 63s